## KİTABLAR, RƏYLƏR

S.Rzasoy
AMEA-nın Folklor İnstitutu

# «AZƏRBAYCAN XALQ ƏDƏBİYYATI»

Azərbaycan folklorunun toplanma və öyrənilməsinin tarixi geniş bir dövrü əhatə etsə də, onun dərslik şəklində təqdiminin əsas təcrübəsi XX əsrin ikinci yarısından sonra başlanmışdır.

Folklorun dərslik şəklində təqdimatı onun tədqiqindən fərqli hadisə olub, folklorşünaslıqla yanaşı, xüsusi pedaqoji tələbləri, prinsipləri bilməyi və tətbiq etməyi bacarmağı tələb edir. Hər bir dərslik həm də folklorşünaslıq elminin yazıldığı çağdakı durumunu özündə əks etdirməlidir. Azərbaycan «humanitarlarının» indiyədək istifadə etdiyi ali məktəb dərslikləri özlərinin üstün keyfiyyətləri ilə yanaşı, bütün hallarda yazıldıqları çağa qədərki elmi təcrübəni inikas edir. Ona görə də zaman-zaman yeni dərsliklərin yazılması elmin inkişafını özündə ifadə edən dialektik ehtiyacdan irəli gəldiyi kimi, dərsliklərə verilən ən son tələbləri də əhatə etməlidir. Bu baxımdan Azərbaycan folklorşünaslıq elminin inkişafında mühüm xidmətləri olan, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Azad Nəbiyevin «Azərbaycan xalq ədəbiyyatı» adlı iki hissəli (I hissə, Bakı, «Turan» Nəşrlər Evi, 2002, 678 s.; II hissə, Bakı, «Elm», 2006, 647 s.) dərsliyi zamanın yeni dərsliyə olan ehtiyacının ifadəsi kimi diqqəti cəlb edir.

İlk öncə qeyd etməliyik ki, professor A.Nəbiyev təkcə Azərbaycan tələblərinə deyil, eyni zamanda elmi ictimaiyyətin diqqətinə həcmi və tematik mahiyyəti baxımından nəhəng dəyərli material təqdim etmişdir. Şübhəsiz ki, dərsliyin ən dolğun və real «resenziyası» onu oxuyan tələbələrin və mütəxəssislərin əxz etdiyi biliklər səviyyəsində olacaq. Lakin bununla belə folklorşünaslığın elmi-pedaqoji və nəzəri-metodiki səviyyəsinin bu reallaşdırılmış faktının dəyərləndirilməsi bu elm sahəsinin inkişafının zəruri və dialektik ehtiyacından irəli gəlir.

Professor A.Nəbiyevin dərsliyi bir sıra ciddi və əlamətdar xüsusiyyətləri ilə özünəqədərki dərsliklərdən fərqlənir. Həmin fərqlər yeni dərsliyin aktuallığını elmi cəhətdən şərtləndirən əsas amillər sırasında olub, onun meydana çıxmasının elmi əsaslarını özündə ehtiva edir.

Dərsliyin ilk gözəçarpan özəlliyi onun fiziki-poliqrafik fakturası ilə folklorşünaslığın boy artımının harmoniya təşkil etməsində ifadə olunur. Azərbaycan folkloru son illərdə daha intensiv şəkildə toplanmağa və çap edilməyə başlamış, buna uyğun olaraq folklorşünaslıq sahəsində aparılan tədqiqatların həcmi artmış, səviyyəst yüksəlmişdir. Folklorşünaslığın boy artımının müstəqillik dönəmindəki vüsəti bu elm sahəsini filologiyanın «kurasiyasından» («yarımtipi» statusundan) faktiki olaraq çıxartmış və ona elmi «suverenitet» qazandırmışdır. Proseslərin itiliyi, coşğunluğu və kəmiyyətcə gurluğu «Azərbaycan folkloru və folklorşünaslı-

ğı» anlayışlarını milli ictimai şüurda «möhtəşəmlik» anlayışına şamil edilən aktual elm sahəsinə çevirmişdir. Bu isə orta və ali məktəbdə folklorun tədrisinin genişləndirilməsinə yeni imkanlar açdığı kimi, eyni zamanda bu sahədə dövrün tələbinə uyğun yenilikləri labüdləşdirmişdir. Bu baxımdan, A.Nəbiyevin «Azərbaycan xalq ədəbiyyatı» dərsliyinin ümumi nəzəri səviyyəsi ilk növbədə folklorşünaslığın müasir elmi-pedaqoji və metodiki səviyyəsi kimi meydana gəlmişdir.

A.Nəbiyevin «Azərbaycan xalq ədəbiyyatı» dərsliyi bu sahədəki təcrübənin bütün göstəriciləri səviyyəsində «yeni» anlayışına cavab verir. «Yenilik» həm ali məktəbin yeni tədris proqramına əsasən folklorumuzun dövrləşdirilməsində, həm də müəllifin şəxsi pedaqoji təcrübəsində təsdiq olunur. Belə ki, A.Nəbiyev uzun illər BDU-da folklorun tədrisi təcrübəsinə malikdir və bu təcrübə zaman-zaman dərsliklər, pedaqoji vəsaitlər şəklində reallaşmışdır.

«Azərbaycan xalq ədəbiyyatı» dərsliyini özünəqədərki təcrübə ilə müqayisə etdikdə məlum olur ki, müəllif məzmunu, tematik strukturu, elmi-pedaqoji və metodiki mahiyyəti etibarilə yeni dərslik yaratmağa müvəffəq olmuşdur. Başqa sözlə, A.Nəbiyev heç bir halda özünəqədərki təcrübəni təkrarlamamış, əksinə, onun bütün reallıqlarını nəzərə almaqla orijinal dərslik yazmışdır. Bu baxımdan dərsliyin daha bir özəlliyi onda ifadə olunur ki, Azərbaycan «humanitar» tələbələri mövcud dərsliklərlə yanaşı, yeni dərsliyin simasında, sözün həqiqi mənasında, zəngin tekstoloji qaynaq əldə etmişlər.

Müəllifin Azərbaycan folkloruna yeni yanaşma metodologiyası dərsliyin tematik strukturunda aydın ifadə olunmuşdur. İki hissəli dərslik səkkiz bölmədən ibarətdir. Birinci hissədə folklor nəzəri irsi və Azərbaycan xalq ədəbiyyatı barədə məlumat verildikdən sonra folklorumuz üç mühüm dövrə – qədim dövr xalq ədəbiyyatı, orta əsrlər dövrü folklor yaradıcılığı və yeni dövr folklor yaradıcılığına ayrılır və dərsliyin birinci hissəsində qədim dövr folklor janrlarının maraqlı elmi-nəzəri şərhi verilir.

Dərsliyin tematik strukturu bir neçə prinsipin üzvi qovuşması kontekstində götürülmüşdür. Bunlardan birincisi milli folklor yaradıcılığının zaman strukturu baxımından təqdimidir. A.Nəbiyev Azərbaycan folklorunun inkişaf tarixini haqlı olaraq dövrlər və mərhələlər üzrə qruplaşdırır və hər bir qrupu dövrün ictimai-siyasi şəraitinə görə dəyərləndirir.

Mif yaradıcılığı çağından başlamış qədim türk dastançılıq dövrünü, o cümlədən oğuzların dastan yaradıcılığı ənənələrini əhatə edir. Orta əsrlər dastan yaradıcılığı isə aşıq sənətinin yaranmasından başlayıb məhəbbət dastanlarını öz içərisinə almaqla «Koroğlu» eposunun meydana gəlməsi ilə tamamlanır. Yeni dövr folklor yaradıcılığı xanlıqlar dövrü (XVIII əsr) folklorunu, qaçaqçılıq dastanlarını, o cümlədən sovet dövrü folklorunu əhatə edir.

Qeyd edək ki, A.Nəbiyevin Azərbaycan folklorunu zaman baxımından təqdimi xüsusi özəlliklərə malikdir. Belə ki, folklorun zaman prinsipləri baxımından təsnifi onun janr tərkibi və sahə yaradıcılığı ilə üzvi şəkildə bağlıdır. Müəllif təsnifatın bu üç fərqli xüsusiyyətini eyni material üzərində uzlaşdır-

mağa və hər bir təsnifat qrupunun özünəməxsus prinsiplər əsasında şərh etməyə nail olmuşdur.

Belə ki, «Orta əsrlər folklor yaradıcılığı» bölməsində aşıq sənətinin təqdimatı zamanı müəllif onu bütün tarixi boyunca izləməyə çalışaraq, sənət və yaradıcılıq ənənəsini zaman baxımından bütöv şəklində təqdim etmişdir. Məsələn, Şirvan aşıq məktəbi ayrı-ayrı fərdlərin simasında XIII əsr sənətkarı Molla Qasımla başlanır və XX əsr sənətkarı Aşıq Şakirlə tamamlanır. Göründüyü kimi, zaman kəsiminin XIII-XX əsrlər hüdudu başlanğıc etibarilə orta əsrlərə aid olsa da, sonu etibarilə yeni dövrə gəlib çıxır. Bu halda folklor informasiyasının zaman baxımından təqdiminin təsnif prinsipləri zahirən pozulur. Lakin, bu müəllifin folklor yaradıcılığına tarixi-dialektik proses kimi yanaşmasının nəticəsi olaraq özünü doğruldur. Belə ki, A.Nəbiyevin təqdimatında, əslində, folklor düşüncəsindən qaynaqlanan bu sənət və yaradıcılıq fenomeninin (aşıqlığın) mədəni-kosmoqonik yaradılışın başlanğıcı epoxal akt kimi qeydə alınır. Müəllif orta əsrlərdən başlanan bu kosmoqonik mədəniyyətinin üzvlənməsini onun zahiri tərəfləri səviyyəsində yox, canlı yaradıcılıq prosesi şəklində izləyir və «aşıq» fenomenini sənət və yaradıcılıq hadisəsi kimi əsas struktur semantemləri səviyyəsində təqdim etməyə nail olur. Bu halda müəllifin təqdimatında aşıq sənəti və yaradıcılığının tarixə zamanın ardıcıllığı baxımından müncər olunan diaxronik strukturu da, tarixə zamanüstü reallıq kimi qəbul olunan sinxron strukturu da eyni baxış müstəvisinə gətirilir.

Dərslik faktiki materialla çox zəngindir. Ona görə də onun indiki şəraitdə «detalları» səviyyəsində təqdimi məhduddur. Söhbət yalnız əsərin qlobal struktur səviyyələrinin təhlilindən gedə bilər. Bu baxımdan, dərslik özünəqədərki təcrübədən bir sıra mühüm xüsusiyyətləri ilə fərqlənir. Bunlardan birincisi Azərbaycan folklorunun janr sərhədlərinin kəskin şəkildə genişləndirilməsidir.

Folklorumuz janr baxımından genişdir. Dərslikdə bu maksimum səviyyədə əhatə olunmuşdur. Qeyd olunmalıdır ki, sağın, ovçu, balıqçı, ipəkçi, hana nəğmələri, yada nəğmələri, fallar, türkəçalar, yalanlar, cadular, yalvarışlar, söyüşlər, öyüdlər, təriflər, şərlər, şaiyələr, sağlıqlar, başsağlıqları, təsəllilər, göstərmələr, gözəgörünmələr, eymənmələr, qarabasmlar, ürəyədammalar, oyunlar, cıdır və zorxana tamaşaları, əyləncə tamaşaları, gözbağlıca tamaşaları, qaraçı tamaşaları, fərdi tamaşalar, buğa döyüşdürmə,bildirçinbazlıq, yumurta döyüşdürmə və s. kimi çoxlu epik, lirik və dramatik janrlar ilk dəfədir ki, təqdim olunur. Onların dərsliyə düşməsi təsadüfi deyildir. Xüsusi qeyd olunmalıdır ki, adları çəkilən janrların, bir çoxu ilk dəfə A.Nəbiyev tərəfindən yazıya alınıb tədqiqata cəlb olunmuşdur.

Kitabda paremioloji janrların təqdimatı diqqəti xüsusi cəlb edir. Azərbaycan folklorşünaslığında paremioloji janrlardan – atalar sözləri, məsəllər, zərbməsllər, alqış, qarğış nümunələrindən xeyli bəhs edilmişdir. Ancaq dərslikdə paremioloji deyim vahidlərinin belə zəngin və aydın təqdimatına ilk dəfə rast gəlinir. Həm də dərslikdə ilk dəfə olaraq həmin janrlarla bağlı perspektiv tədqiqatların mükəmməl elmi-nəzəri və metodoloji bazası yaradılmışdır.

Burada mərasim folklorunun janr sərhədləri dürüstləşdirilmiş, həm də folklorumuzun janr tərkibi zənginləşdirilmiş, çoxlu oyun, xüsusilə mərasim, tamaşa nümunələri struktur, həm də poetik-atributiv əlamətlər istiqamətində təhlil olunmuşdur.

Yeni dərslik özünün nəzəri sanbalı ilə xüsusilə seçilir. Buradakı nəzəri müddəalar bir neçə sahəni əhatə edir. Birincisi, janrlar haqqında verilən əhatəli nəzəri biliklərdir. Müəllif dərsliyində hər bir janr haqqında sistemli nəzəri məlumatlar verir və bu məlumatlarda Azərbaycan folklorşünaslığına yeni yanaşma təcrübəsi öz əksini tapdığı kimi, professorun yeni və orijinal baxışları da diqqəti cəlb edir.

Dərslikdə Azərbaycan humanitarları dünya folklorşünaslığının elmi-nəzəri fikirləri – mövcud nəzəriyyə, cərəyan və məktəblərlə də tanış edilmiş, müxtəlif nəzəriyyələrin başlıca mahiyyətindən, metodoloji əsaslarından ətraflı söz açılmışdır. Bu sırada Güney Azərbaycan folklorşünaslığından ayrıca bəhs olunması xüsusilə təqdirəlayiq hesab edilməlidir.

Dərslikdə milli mifologiyanın təqdimi də yenidir. Bu bölmədə mifoloji düşüncə, onun strukturu, mətnləri, obrazlar sistemi, pərəstiş obyektləri və s. haqqında dəyərli və sistemli bilgilər verilmişdir. Müəllif öz təqdimatında türk mifoloji düşüncəsi, zərdüştilik və islam görüşlərinin Azərbaycan mifologiyası kontekstində uzlaşma məsələsinə baxışlarını şərh etmişdir. Bu baxımdan, verilmiş məlumatlar bir tərəfdən mifologiyanın poetik strukturunu əhatə edirsə, digər tərəfdən onun etnik düşüncə sisteminin əsası kimi milli məzmununu özündə əks etdirir.

A.Nəbiyev folklor dərslikləri tarixində ilk dəfə olaraq aşıq məktəbi və mühitlərindən bəhs etmişdir. «Məktəb» və «mühit» anlayışları ilə bağlı dolaşıqlara aydınlıq gətirən müəllif xüsusilə «məktəb» anlayışının ədəbiyyatşünaslıqdakı mənasının folklora mexaniki şəkildə tətbiqinin zərərli nəticələrinə də toxunmuşdur. «Məktəb» anlayışını aşıq sənəti və yaradıcılığının ənənəvi hadisəsi, «mühit» anlayışını həmin ənənələrin yayılma arealı kimi götürən müəllif aşıq sənətini məktəbi-mühit strukturu səviyyəsində yeni elmi əsasda şərh etmiş və onun Anadolu, Şirvan, Təbriz, Göyçə aşıq məktəbləri kimi yaranıb yüksəlməsi faktını əsaslandıra bilmişdi. Müəllif Borçalı, Dərələyəz, İrəvan, Gəncəbasar, Qarabağ aşıq mühitlərini Göyçə aşıq məktəbi ənənəsinin yayıldığı areallar kimi götürmüşdür. Dərslikdə tələbələr üçün çox vacib olan tarixi yaradıcılıq ənənələri bir sistem kimi götürülmüş, aşıq yaradıcılığının nəzəri-metodoloji əsasları, tarix yaradıcılıq ənənələri və poetik strukturu bir-biri ilə vəhdətdə olan yaradıcılıq prosesi kimi götürülmüşdür.

Dərsliyin təqdimatında başqa təqdirəlayiq cəhətlərdən biri müəllifin məktəb və mühitlərin kəmiyyət strukturu və daxili məzmun baxımından fərqləndirməsindən asılı olmayaraq, aşıq yaradıcılığının «məktəb» və «mühit» səviyyələrini bir-birindən əsaslı şəkildə fərqləndirməsidir. Bir çox folklorşünasların dediyi kimi, bu problem nə sinonim anlayışlar yaratmış, nə də ümumiyyətlə, bir-biri ilə eyniləşdirilmişdir. Halbuki, görkəmli folklorşünas H.İsmayılov və bir sıra başqa araşdırıcıların mühazirələrini çıxmaq şərtilə bir çoxları «aşıq məktəbi» və «aşıq mühiti» anlayışlarını bir-birindən fərqləndirməmişlər.

A.Nəbiyev aşıq sənəti və yaradıcılığını tarixi-xronoloji proses kimi təqdim edərkən haqlı olaraq məktəb-mühit səviyyələrindən çıxış etmiş və beləliklə, çoxəsrlik yaradıcılıq təcrübəsinə malik sənət və yaradıcılıq prosesini onun səciyyəvi ənənələri (məktəb) və areal xüsusiyyətləri (mühit) baxımından sistemləşdirə bilmişdir. Bu orijinal müəllif yanaşmasının əks olunması folklorşünaslığımızda ilk dəfədir ki, aşıq yaradıcılığı, onun yaranma və yayılma spesifikası yüksək elmi-nəzəri səviyyədə şərh edilir.

Dərsliyin başqa səciyyəvi xüsusiyyətlərindən biri onun folklora tamamilə yeni yanaşma meyarı ilə bağlılığındadır. Bu baxımdan, «Azərbaycan xalq nəsri» bölməsi xüsusilə əhəmiyyətlidir. Burada miflər, əfsanələr, rəvayətlər, lətifələr, nağıllar təhlil olunmuş, onların tematik təsnifatı aparılmış, səciyyəvi cəhətləri şərh olunmuşdur. Diqqəti çəkən başlıca cəhət isə bu ənənəvi janrların «xalq nəsri» adı altında verilməsidir. «Xalq nəsri» ənənəvi folklorşünaslığın işlək terminologiyasına aiddir. Lakin Azərbaycan folklorşünaslığında folklorun poetik-semantik mahiyyətinin şərhi zamanı bu termindən istifadə olunmamışdır. A.Nəbiyev dünya elmi-nəzəri təcrübəsindən çıxış edərək ilk dəfə dərslikdə bu termindən istifadə etmiş, bura aid etdiyi janrları epik özünüifadənin nəsr koduna məxsus daşıyıcıları kimi səciyyələndirmişdir. Belə hesab edirik ki, «Azərbaycan xalq nəsri» anlayışının folklorşünaslıqda necə vətəndaşlıq alacağından asılı olmayaraq, mif, əfsanə, rəvayət, lətifə, nağıl kimi janrların «nəsr anlayışına aid olunması, başqa sözlə, onların janr strukturunda nəsr əlamətinin başlıca təsnifat-təsvir kodu kimi seçilməsinin özü yenidir. Bu yenilik həmin janrlara münasibətdə, şübhəsiz, yeni müəllif yanaşmalarının, elmi polemikaların potensial imkanları ilə bağlıdır.

Yeni yanaşma metodologiyası dərsliyin «Eposçuluğa yeni qayıdış» bölməsinin qoyuluşunda da müşahidə edilir. A.Nəbiyev oğuz dastançılığından sonra qəhrəmanlıq ənənəsinin «Koroğlu» dastanı repertuarında yenidən dirçəlməsini haqlı olaraq «yeni yüksəliş» adlandırmışdır. Doğrudan da, «Dədə Qorqud» oğuznamələrindən «Koroğlu» ənənəsinə keçid epoxal hadisə idi: Azərbaycan xalqının oğuzlardan etnik vahid kimi üzvlənməsini özündə əks etdirirdi. Etnik-milli müəyyənləşmələrin tarixi-prosessual strukturu isə epos yaradıcılığında daha fəal inikas olunurdu. Oğuz-türk çağının bitməsi və Azərbaycan-türk çağının başlanmasının bütün keçid xüsusiyyətlərinin (bitmə-başlanma) dialektikasını belə hesab edirik ki, A.Nəbiyev «Eposçuluğa yeni qayıdış» adı altında tam şəkildə ehtiva edə bilmişdir.

Folklora yeni yanaşma metodologiyası əsasında yazılmış dərsliyin məziyyətləri heç də deyilənlərlə məhdudlaşmır. İki iri kitabdan ibarət olan dərslikdə folklorun bir çox problemləri ilə bağlı tamamilə yeni məsələlər qoyulmuş, yeni yanaşma və orijinal baxışlar reallaşdırılmışdır. Dərsliklə bağlı ilkin ümumiləşdirici qənaətləri aşağıdakı kimi qruplaşdırmaq olar:

A.Nəbiyevin «Azərbaycan xalq ədəbiyyatı» dərsliyi həm mövcud elmi, nəzəri və metodiki təcrübə, həm də müəllifin çoxiilik axtarışlarının yeknundan irəli gələn yeni hadisədir.

Müəllif dövrün tələblərinə cavab verən dərslik yaratmaq məqsədinə öz toplayıcılıq fəaliyyətini konseptuallaşdırma yolu ilə nail olmuşdur. Başqa sözlə, dərslikdə Azərbaycan folklorunun tən fonunda, xüsusilə müəllifin özünün topladığı orijinal mətnlərə – yeni janrlara təzə nəzəri baxışlar reallaşdırılmışdır. Müəllif folklorun və folklorşünaslığın hər bir məsələsinə öz yanaşmasını təqdim etməklə dərsliyin konspetual yeniliyini təmin etməyə nail olmuşdur.

Dərslikdə Azərbaycan folklorunun janr sərhədləri, janrdaxili məzmun tutumu və poetik mətn arealı baxımından genişləndirilməsi, «maksimumun» hazırkı səviyyəsinə çatdırılması da tamamilə yenidir. Müəllif indiyədək haqqında fraqmentlər şəklində bəhs olunmuş, ötəri şəkildə toxunulmuş, yaxud haqqında ümumiyyətlə danışılmamış çoxsaylı janrların yeni silsiləsini təqdim etmiş, onların poetik mahiyyətini, səciyyəvi atributiv əlamətlərini təsvir və təhlil etmişdir.

Burada folklorşünaslığın nəzəri təqdimi də yeni səviyyəyə qaldırılmışdır. Nəzəri biliklər iki istiqamətdə reallaşdırılmışdır: tələbələrə verilən metodoloji biliklər praktiki nümunələrlə təsdiqlənmiş və folklorşünaslığın elmi-metodoloji təcrübənin nəzəri strukturu formalaşdırılmışdır.

Dərslik müəllifin folklora yeni yanaşmasının sistem təcrübəsini özündə əks etdirir. Bu sistemləşdirmədə o, dövrləşdirmə prinsipinin diaxron və sinxron səviyyələrini birləşdirməyə çalışmış, o cümlədən bu yanaşmanın janr təsnifatı və onun nəzəri-metodoloji əsasları ilə uzlaşdırmağa nail olmuşdur. Zəngin və mürəkkəb bir material üzərində müxtəlif yanaşmaların belə uzlaşdırılması yeni təcrübə olmaqla perspektivdə də yeni yanaşmalara imkandır.

A.Nəbiyevin dərslikdə «xalq ədəbiyyatı» adı altında reallaşdırdığı təcrübə «folklor» anlayışının real tutumunun «ədəbiyyat» anlayışından prinsipial şəkildə fərqli səviyyə olduğunu ortaya qoymuşdur. Heç şübhəsiz ki, filologiya fakültələrinin tələbələri, eləcə də folklorşünaslar üçün nəzərdə tutulmuş dərslik başlıca təmayülü etibarilə «ədəbiyyat» səciyyəli olmalı idi. Müəllif də folklorun təqdimində «ədəbiyyat» səviyyəsini – folklorun bədii söz koduna aid olunan səviyyəsini dolğun şəkildə əhatə etmişdir. Lakin A.Nəbiyevin reallaşdırdığı təcrübə dialektik olaraq «ədəbiyyatüstü» səviyyəni də özündə ehtiva edir, onun müəllifinin uzunillik elmi axtarışlarını əks etdirir. Bu baxımdan, «Azərbaycan xalq ədəbiyyatı» dərsliyi onun müəllifi tərəfindən dünya elmi-nəzəri fikrinə təqdim olunmuş yeni «genetik nəzəriyyə»ni də özündə reallaşdırır.

Hər bir orijinal yanaşma təcrübəsi özünün mübahisəli tərəflərinə də malik olur: təcrübənin mübahisəli cəhətlərinin olması reallaşdırılmış problemlərin qoyuluşu və tədqiqinin yeniliyini özündə əhatə edir. Bu baxımdan, A.Nəbiyevin də dərsliyində fərqli məqamlara, mübahisəli cəhətlərə də rast gəlinir. Belə hesab edirik ki, dərsliyin bu polemik tərəfləri də onun yeniliyini səciyyələndirir. Çünki hər bir elmi təcrübənin perspektivə yönəlmiş aktuallığı onun elmin inkişafına hansı səviyyədə təkan verə biləcəyi ilə ölçülür. Bu baxımdan, AMEA-nın müxbir üzvü, professor A.Nəbiyevin dərsliyi Azərbaycan folklorşünaslıq elmi dövriyyəsinə kifayət qədər düşündürücü, elmi-nəzəri fikri stimullaşdırıcı dəyərlər verən mühüm elm hadisəsidir.